# DÖVLƏT İMTAHAN MƏRKƏZİ 2025/2026-cı TƏDRİS İLİ ÜÇÜN AZƏRBAYCAN RESPUBLİKASININ ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ TƏLƏBƏ QƏBULU MÜSABİQƏSİNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN İXTİSAS SEÇİMİ ELAN EDİR

## 1. Müsabiqədə iştirak etmək üçün ərizə qəbulu

**1.1.** İxtisas seçimi **2025-ci il avqustun 11-dən 19-dək** internet vasitəsilə aparılır.

**1.2.** İmtahan verdiyi ixtisas qrupu (altqrupu) üzrə müsabiqə şərtini ödəyən abituriyent həmin qrup (altqrup) üzrə ixtisas seçmək hüququ əldə edir. Abituriyent, müsabiqə şərtlərini ödədiyi halda, eyni vaxtda I-IV ixtisas qruplarının hər hansı biri və ya ikisi, o cümlədən I ixtisas qrupunun RK və Rİ altqrupları, III ixtisas qrupunun DT və TC altqrupları və həmçinin V ixtisas qrupu üzrə ixtisas seçimində iştirak edə bilər.

**İxtisas seçmək hüququ olan abituriyent** müsabiqə şərtini ödədiyi ixtisas qrupuna (qruplarına), o cümlədən altqrupuna (altqruplarına) aid olan **15-dək** ixtisasın kodunu qeyd edə bilər. İxtisas seçimi mərhələsində abituriyent qəbul olmaq istədiyi ixtisasların kodlarını **eservices.dim.gov.az/erizebak/ixtisas1** internet ünvanında yerləşən "Abituriyentin elektron ixtisas seçimi ərizəsi"nə daxil edib təsdiq etməlidir (bax: səh. 10, "Abituriyentin elektron ixtisas seçimi ərizəsi"nin doldurulma qaydası).

**1.2.1.** Dövlət sifarişi əsasında və ya ödənişli əsaslarla qəbul aparılmasından asılı olmayaraq ali təhsil müəssisələrinin ixtisaslarının siyahısında hər bir ixtisas üzrə ümumi plan yerləri təqdim edilmişdir (bax: səh. 12-35). Hər bir ixtisas üzrə dövlət sifarişi əsasında ayrılmış yerlərin sayı və dövlət sifarişinin yerinə yetirilməsində iştirak edən ali təhsil müəssisələrinin siyahısı ayrıca cədvəldə verilmişdir (bax: səh. 36-41).

Abituriyent ixtisas seçərkən bu ixtisas üzrə dövlət sifarişi əsasında və ya ödənişli əsaslarla təhsil almaq istədiyini qeyd etməlidir. Hər hansı bir ixtisas üzrə həm dövlət sifarişi, həm də ödənişli əsaslarla olan yerlərin müsabiqəsində iştirak etmək istəyən abituriyent həmin ixtisasın kodunu ərizəyə iki dəfə daxil etməli və birinin qarşısında dövlət sifarişi əsasında, digərinin qarşısında isə ödənişli əsaslarla təhsil almaq istədiyini qeyd etməlidir. Seçəcəyi ixtisas kodlarını, onların sayını və ardıcıllığını abituriyent özü müəyyənləşdirir.

**1.2.2.** Dövlət hesabına ali təhsil almış abituriyentlər dövlət sifarişi üzrə ayrılmış yerləri seçə bilməzlər.

**1.2.3.** Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, qüvvədə olan qanunvericilikdə və dövlətlərarası razılaşmalarda digər hallar nəzərdə tutulmayıbsa, dövlət sifarişi üzrə ayrılmış yerləri seçə bilməzlər.

## 2. Müsabiqə şərtləri

**2.1.** Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə tələbə qəbulu müsabiqəsində iştirak etmək üçün **ixtisas seçiminə** aşağıdakı şərtləri ödəyən abituriyentlər buraxılırlar:

### I ixtisas qrupu

Müsabiqəyə (həm dövlət sifarişi əsasında, həm də ödənişli əsaslarla qəbul aparılan yerlər üzrə) ümumi balı 200-dən, imtahanın ikinci mərhələsi üzrə balı 100-dən az olmayan abituriyentlər buraxılırlar.

Müəyyən ixtisaslar üzrə tətbiq edilən tələblər qismən fərqlidir:

- **"Riyaziyyat", "Fizika" və "Kompüter elmləri"** ixtisasları üzrə müsabiqəyə ümumi balı 250-dən, imtahanın ikinci mərhələsi üzrə balı 100-dən az olmayan abituriyentlər buraxılır;
- **Dövlət ali təhsil müəssisələrinin (ADA Universiteti, Bakı Ali Neft Məktəbi, Sumqayıt Dövlət Universiteti və Türkiyə-Azərbaycan Universiteti istisna olmaqla) tədrisi ingilis dilində olan ixtisaslarının** müsabiqəsinə qəbul imtahanının birinci mərhələsində (cari ilin məzunları üçün buraxılış imtahanında) ingilis dili fənni üzrə nisbi balı 40-dan az olmayan abituriyentlər buraxılır;
- Aşağıda qeyd olunan ixtisaslar üzrə ödənişli əsaslarla ayrılmış yerlərin müsabiqəsinə ümumi balı 150-dən və imtahanın ikinci mərhələsi üzrə balı 50-dən az olmayan (dövlət sifarişi əsasında ayrılan yerlər üzrə ümumi balı 200-dən və imtahanın ikinci mərhələsi üzrə balı 100-dən az olmayan) abituriyentlər buraxılır:
  - Meliorasiya mühəndisliyi;
  - Texnologiya müəllimliyi;
  - Ekologiya mühəndisliyi.
- Aşağıda qeyd olunan ixtisaslar üzrə həm dövlət sifarişi əsasında, həm də ödənişli əsaslarla qəbul aparılan yerlərin müsabiqəsində ümumi balı 150-dən və imtahanın ikinci mərhələsi üzrə balı 50-dən az olmayan abituriyentlər iştirak edə bilərlər:
  - Aqromühəndislik;
  - Aqronomluq;
  - Balıqçılıq;
  - Meşəçilik;
  - Şərabçılıq;
  - Torpaqşünaslıq və aqrokimya;
  - Yerquruluşu və daşınmaz əmlakın kadastrı;
  - Zoomühəndislik.

### II ixtisas qrupu

Müsabiqəyə (həm dövlət sifarişi əsasında, həm də ödənişli əsaslarla qəbul aparılan yerlər üzrə) ümumi balı 200-dən, imtahanın ikinci mərhələsi üzrə balı 100-dən az olmayan abituriyentlər buraxılır.

Müəyyən ixtisaslar üzrə tətbiq edilən tələblər qismən fərqlidir:

- **Dövlət ali təhsil müəssisələrinin (ADA Universiteti və Bakı Ali Neft Məktəbi istisna olmaqla) tədrisi ingilis dilində olan ixtisaslarının** müsabiqəsinə qəbul imtahanının birinci mərhələsində (cari ilin məzunları üçün buraxılış imtahanında) ingilis dili fənni üzrə nisbi balı 40-dan az olmayan abituriyentlər buraxılır;
- Aşağıda qeyd olunan ixtisaslar üzrə ödənişli əsaslarla ayrılmış yerlərin müsabiqəsinə ümumi balı 150-dən və imtahanın ikinci mərhələsi üzrə balı 50-dən az olmayan (dövlət sifarişi əsasında ayrılan yerlər üzrə ümumi balı 200-dən və imtahanın ikinci mərhələsi üzrə balı 100-dən az olmayan) abituriyentlər buraxılır:
  - Marketinq;
  - Biznesin idarə edilməsi;
  - Turizm bələdçiliyi;
  - Turizm işinin təşkili.

### III ixtisas qrupu

Müsabiqəyə (həm dövlət sifarişi əsasında, həm də ödənişli əsaslarla qəbul aparılan yerlər üzrə) ümumi balı 200-dən, imtahanın ikinci mərhələsi üzrə balı 100-dən az olmayan abituriyentlər buraxılır.

Müəyyən ixtisaslar üzrə tətbiq edilən tələblər qismən fərqlidir:

- **Dövlət ali təhsil müəssisələrinin (ADA Universiteti istisna olmaqla) tədrisi ingilis dilində olan ixtisaslarının** müsabiqəsinə qəbul imtahanının birinci mərhələsində (cari ilin məzunları üçün buraxılış imtahanında) ingilis dili fənni üzrə nisbi balı 40-dan az olmayan abituriyentlər buraxılır;
- **Dövlət ali təhsil müəssisələrinin (ADA Universiteti istisna olmaqla) "Tərcümə (dillər üzrə)", "Filologiya (xarici dil və ədəbiyyat üzrə)", "Xarici dil müəllimliyi (dillər üzrə)" və "Beynəlxalq münasibətlər" ixtisaslarının** müsabiqəsinə qəbul imtahanının birinci mərhələsində (cari ilin məzunları üçün buraxılış imtahanında) xarici dil fənni üzrə nisbi balı 40-dan az olmayan abituriyentlər buraxılır;
- Aşağıda qeyd olunan ixtisaslar üzrə ödənişli əsaslarla ayrılmış yerlərin müsabiqəsinə ümumi balı 150-dən və imtahanın ikinci mərhələsi üzrə balı 50-dən az olmayan (dövlət sifarişi əsasında ayrılan yerlər üzrə ümumi balı 200-dən və imtahanın ikinci mərhələsi üzrə balı 100-dən az olmayan) abituriyentlər buraxılır:
  - Muzey, arxiv işi və abidələrin qorunması;
  - Sosial iş;
  - Regionşünaslıq (regionlar üzrə).

### IV ixtisas qrupu

Müsabiqəyə (həm dövlət sifarişi əsasında, həm də ödənişli əsaslarla qəbul aparılan yerlər üzrə) ümumi balı 200-dən, imtahanın ikinci mərhələsi üzrə balı 100-dən az olmayan abituriyentlər buraxılır.

Müəyyən ixtisaslar üzrə tətbiq edilən tələblər qismən fərqlidir:

- **Dövlət ali təhsil müəssisələrinin (Sumqayıt Dövlət Universiteti istisna olmaqla) tədrisi ingilis dilində olan ixtisaslarının** müsabiqəsinə qəbul imtahanının birinci mərhələsində (cari ilin məzunları üçün buraxılış imtahanında) ingilis dili fənni üzrə nisbi balı 40-dan az olmayan abituriyentlər buraxılır;
- Aşağıda qeyd olunan ixtisas üzrə ödənişli əsaslarla ayrılmış yerlərin müsabiqəsinə ümumi balı 150-dən və imtahanın ikinci mərhələsi üzrə balı 50-dən az olmayan (dövlət sifarişi əsasında ayrılan yerlər üzrə ümumi balı 200-dən və imtahanın ikinci mərhələsi üzrə balı 100-dən az olmayan) abituriyentlər buraxılır:
  - Ekologiya.
- Aşağıda qeyd olunan ixtisaslar üzrə həm dövlət sifarişi əsasında, həm də ödənişli əsaslarla qəbul aparılan yerlərin müsabiqəsində ümumi balı 150-dən və imtahanın ikinci mərhələsi üzrə balı 50-dən az olmayan abituriyentlər iştirak edə bilərlər:
  - Bağçılıq və tərəvəzçilik;
  - Baytarlıq təbabəti;
  - Bitki mühafizəsi;
  - Su bioehtiyatları və akvakultura.

### V ixtisas qrupu

Ali təhsil müəssisələrinin V ixtisas qrupunda qabiliyyət imtahanlarının nəticələri **balla qiymətləndirilən** xüsusi qabiliyyət tələb edən ixtisaslar **(kodunun qarşısında iki ulduz (**) qeyd olunan ixtisaslar)** üzrə müsabiqə abituriyentin qabiliyyət imtahanlarında topladığı yekun balı, qabiliyyət imtahanlarının nəticələri **məqbulla qiymətləndirilən** xüsusi qabiliyyət tələb edən ixtisaslar **(kodunun qarşısında bir ulduz (*) qeyd olunan ixtisaslar)** üzrə müsabiqə abituriyentin qəbul (cari ilin məzunları üçün buraxılış) imtahanında topladığı ümumi balı əsasında aparılır. Müsabiqə şərtləri **"Xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə müsabiqə şərtləri"** adlı cədvəldə verilmişdir (bax: səh. 8).

Xüsusi qabiliyyət tələb edən ixtisasların komissiyalar üzrə bölgüsü və qeydiyyat zamanı nəzərə alınan şərtlər "Abituriyent" jurnalının xüsusi buraxılışlarında təqdim olunmuşdur.

**2.2.** Xüsusi təyinatlı ali təhsil müəssisələrinə sənəd verən abituriyentlər, ilk növbədə həmin ali təhsil müəssisələrinin müvafiq ixtisasları üzrə müsabiqədə iştirak edirlər. Abituriyent yalnız bir xüsusi təyinatlı ali

təhsil müəssisəsinin ixtisasları üzrə müsabiqədə iştirak edə bilər. Müsabiqədən keçməyən abituriyentlərə digər ixtisaslar üzrə keçirilən müsabiqədə ümumi qaydada iştirak etmək imkanı verilir.

**2.3.** Müsabiqə abituriyentin seçdiyi ixtisas qrupu və ya qrupları (o cümlədən altqruplar) üzrə topladığı ümumi bal və ya ballar əsasında aparılır. Abituriyentin yerləşdirilməsi onun elektron ixtisas seçimi ərizəsində qeyd etdiyi ixtisasların ardıcıllığı nəzərə alınmaqla, ixtisaslar üzrə qəbul planı və dövlət sifarişi ilə tələbə qəbulunun proqnozu çərçivəsində həyata keçirilir. Dövlət sifarişi əsasında ayrılmış yerlərin müsabiqəsi bu sifarişin yerinə yetirilməsində iştirak edən bütün ali təhsil müəssisələri üzrə bölməsindən və təhsilalma formasından asılı olmayaraq birgə, ödənişli əsaslarla olan yerlərin müsabiqəsi isə hər bir ali təhsil müəssisəsi üzrə ayrılıqda aparılır. Abituriyent müsabiqədən keçdiyi ixtisasların birincisinə yerləşdirilir.

**2.4.** Ali təhsil müəssisələrinin I-IV ixtisas qruplarına daxil olan ixtisasları üzrə müsabiqə zamanı *(iki mərhələnin nəticəsində)* topladığı ümumi balı eyni olan iki və daha çox abituriyenti bir-birindən fərqləndirmək məqsədilə aşağıda qeyd edilən ardıcıllıqla əlavə göstəricilərdən istifadə edilir:

– *təhsil haqqında sənədə (attestata) "Tədris dili", "Ədəbiyyat", "Xarici dil", "Riyaziyyat", "Azərbaycan tarixi", "Ümumi tarix", "Fizika", "Kimya", "Biologiya", "Coğrafiya" fənləri üzrə yazılmış yekun qiymətlərin ədədi ortası;*
– *xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə qabiliyyət imtahanının yekun nəticəsi (bal)*[1]*;*
– *qəbul imtahanının ikinci mərhələsi üzrə ümumi bal;*
– *qəbul imtahanının ikinci mərhələsinin imtahan fənləri üzrə nisbi balların cəmi;*
– *qəbul imtahanının ikinci mərhələsinin imtahan fənləri üzrə düzgün cavabların (yazılı şəkildə cavablandırılması tələb olunan tapşırıqlar üzrə balların*[2]*) sayı;*
– *qəbul imtahanının ikinci mərhələsinin imtahan fənlərinin üstünlük dərəcəsini*[3] *nəzərə almaqla, həmin fənlərdən ayrılıqda toplanılan nisbi balların miqdarı;*
– *qəbul imtahanının birinci mərhələsi üzrə Azərbaycan dili və ya rus dili fənnindən toplanılan bal;*
– *qəbul imtahanının birinci mərhələsi üzrə riyaziyyat fənnindən toplanılan bal.*

Ali təhsil müəssisələrinin V ixtisas qrupuna daxil olan, qabiliyyət imtahanlarının nəticələri balla qiymətləndirilən xüsusi qabiliyyət tələb edən ixtisasları üzrə müsabiqə abituriyentin qabiliyyət imtahanlarında topladığı yekun bal əsasında aparılır. Yekun balı eyni olan iki və daha çox abituriyenti bir-birindən fərqləndirmək məqsədilə aşağıda qeyd edilən ardıcıllıqla əlavə göstəricilərdən istifadə edilir:

– *abituriyentin qəbul (müvafiq ilin abituriyentləri üçün buraxılış) imtahanında topladığı ümumi bal;*
– *təhsil haqqında sənədə (attestata) "Tədris dili", "Ədəbiyyat", "Xarici dil", "Riyaziyyat", "Azərbaycan tarixi", "Ümumi tarix", "Fizika", "Kimya", "Biologiya", "Coğrafiya" fənləri üzrə yazılmış yekun qiymətlərin ədədi ortası;*
– *riyaziyyat fənni üzrə imtahan balı;*
– *Azərbaycan dili və ya rus dili fənni üzrə imtahan balı.*

Ali təhsil müəssisələrinin V ixtisas qrupuna daxil olan xüsusi qabiliyyət tələb olunmayan ixtisasları və qabiliyyət imtahanlarının nəticələri "məqbul"la qiymətləndirilən xüsusi qabiliyyət tələb edən ixtisasları üzrə müsabiqə abituriyentin qəbul (müvafiq ilin abituriyentləri üçün buraxılış) imtahanında topladığı ümumi balı əsasında aparılır. Ümumi balı eyni olan iki və daha çox abituriyenti bir-birindən fərqləndirmək məqsədilə aşağıda qeyd edilən ardıcıllıqla əlavə göstəricilərdən istifadə edilir:

– *təhsil haqqında sənədə (attestata) "Tədris dili", "Ədəbiyyat", "Xarici dil", "Riyaziyyat", "Azərbaycan tarixi", "Ümumi tarix", "Fizika", "Kimya", "Biologiya", "Coğrafiya" fənləri üzrə yazılmış yekun qiymətlərin ədədi ortası;*
– *riyaziyyat fənni üzrə imtahan balı;*
– *Azərbaycan dili və ya rus dili fənni üzrə imtahan balı.*

**2.5.** Ümumi balı eyni olan iki və daha çox abituriyenti bir-birindən fərqləndirmək mümkün olmadıqda, onların hamısı müvafiq ixtisasa yerləşdirilir.

**2.6.** Hər hansı bir ixtisasa yerləşdirilmiş abituriyent müəyyən edilən 10 (on) iş günü müddətində qəbul olunduğu təhsil müəssisəsi üzrə elektron qaydada qeydiyyatdan keçməlidir. Bunun üçün abituriyent **https://portal.edu.az/** platformasında qeydiyyatdan keçməli və yaradılmış kabinetə daxil olduqdan sonra təqdim edilən xidmətlər sırasında "Ali və orta ixtisas təhsil müəssisələrinə təhsilalan qeydiyyatı" xidmətini seçməlidir. Abituriyentin bu müddətdə qeydiyyatdan keçməməsi onun yerləşdirildiyi ixtisas üzrə təhsil almaqdan imtina etməsi kimi qiymətləndirilir. Bu abituriyentlər boş qalan yerlər üzrə keçirilən müsabiqəyə buraxılmırlar.

**2.7.** Tədrisi ingilis və alman dillərində olan bütün ixtisaslara müsabiqə Azərbaycan və rus bölmələri üzrə birgə aparılır.

---

[1] Bu bənd yalnız I ixtisas qrupunun "Memarlıq" ixtisası üzrə müsabiqə zamanı nəzərə alınır.

[2] Yazılı şəkildə cavablandırılması tələb olunan tapşırıqlar üzrə ballar dedikdə, əmsala vurulmuş ballar nəzərdə tutulur ($0, \frac{2}{3}, 1, \frac{4}{3}$ və ya 2 bal).

[3] İmtahan fənlərinin üstünlük dərəcələri jurnalın 8-ci səhifəsində "İmtahan fənlərinin ixtisas qrupları (altqrupları) üzrə çəki əmsalları və üstünlük dərəcələri" adlı cədvəldə təqdim olunmuşdur.

## 3. Xüsusi hallar

**3.1. "Jurnalistika"** ixtisasını yalnız III ixtisas qrupunun DT altqrupu üzrə təqdim olunan müsabiqə şərtlərini ödəyən və test imtahanından sonra təqdim olunmuş mövzu üzrə yazı işini (inşanı) müvəffəqiyyətlə yerinə yetirən abituriyentlər seçə bilərlər.

**3.2.** Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan Texnologiya Universiteti, Qərbi Kaspi Universiteti və Azərbaycan Dövlət Aqrar Universitetinin "Dizayn (sahələr üzrə)", Bakı Mühəndislik Universiteti, ADA Universiteti, Naxçıvan Dövlət Universiteti və Xəzər Universitetinin isə "Memarlıq" və "Dizayn (sahələr üzrə)" ixtisaslarını seçmək üçün qabiliyyət imtahanında iştirak etmək tələb olunmur.

**3.3. Azərbaycan İlahiyyat İnstitutunun "Dinşünaslıq" ixtisasının** müsabiqəsinə III ixtisas qrupunun DT altqrupu üzrə qəbul imtahanında topladıqları ümumi balları 150-dən və imtahanın ikinci mərhələsində topladıqları balları 50 dən az olmayan abituriyentlər buraxılırlar.

**Azərbaycan İlahiyyat İnstitutunun "İslamşünaslıq" ixtisasının** müsabiqəsində III ixtisas qrupunun DT altqrupu üzrə qəbul imtahanında topladıqları ümumi balları 150-dən, imtahanın ikinci mərhələsində topladıqları balları 50-dən az olmayan və bu təhsil müəssisəsində yaradılan dini-psixoloji komissiya tərəfindən aparılan müsahibədən müvəffəqiyyətlə keçən abituriyentlər iştirak edə bilərlər.

**3.4. Azərbaycan Dövlət Dəniz Akademiyasının tədrisi ingilis dilində olan "Dəniz naviqasiyası mühəndisliyi" və "Gəmi energetik qurğularının istismarı mühəndisliyi"** ixtisaslarının müsabiqəsinə qəbul imtahanının birinci mərhələsində (buraxılış imtahanında) ingilis dili fənni üzrə nisbi balı 50-dən az olmayan abituriyentlər buraxılır.

**"Dəniz naviqasiyası mühəndisliyi" və "Gəmi energetik qurğularının istismarı mühəndisliyi"** ixtisaslarının qiyabi təhsilalma formasını yalnız Azərbaycan Dövlət Dəniz Akademiyasının nəzdində olan Azərbaycan Dənizçilik Kollecini bitirən və dənizçilik sahəsində çalışan şəxslər seçə bilərlər.

**3.5 Azərbaycan Memarlıq və İnşaat Universitetinin tədrisi ingilis dilində olan** ixtisaslarının müsabiqəsinə qəbul imtahanının birinci mərhələsində (buraxılış imtahanında) ingilis dili fənni üzrə nisbi balı 60-dan az olmayan, mütəxəssis hazırlığı **İstanbul Texniki Universiteti ilə birgə ikili diplom proqramı üzrə həyata keçirilən "İnşaat mühəndisliyi" ixtisasının** müsabiqəsinə isə nisbi balı 70-dən az olmayan abituriyentlər buraxılır.

**3.6. Dövlət Gömrük Komitəsinin Akademiyasının** ixtisaslarını qəbul imtahanında xarici dil kimi ingilis dilindən imtahan vermiş abituriyentlər seçə bilərlər.

**Dövlət Gömrük Komitəsinin Akademiyasının tədrisi ingilis dilində olan "İnformasiya texnologiyaları" və "Beynəlxalq ticarət və logistika"** ixtisaslarının müsabiqəsinə qəbul imtahanının birinci mərhələsində (buraxılış imtahanında) ingilis dili fənni üzrə nisbi balı 50-dən az olmayan abituriyentlər buraxılır.

**3.7. Milli Aviasiya Akademiyasının I qrup ixtisaslarını** qəbul imtahanında xarici dil kimi ingilis dilindən imtahan vermiş abituriyentlər seçə bilərlər.

**Milli Aviasiya Akademiyasının "Uçuş mühəndisliyi" və "Hava nəqliyyatının hərəkətinin təşkili" ixtisaslarının** müsabiqəsində yalnız 23 yaşına çatmamış abituriyentlər iştirak edə bilərlər.

**Milli Aviasiya Akademiyasının "Uçuş mühəndisliyi" və "Hava nəqliyyatının hərəkətinin təşkili" ixtisaslarını** yalnız Milli Aviasiya Akademiyasından aldıqları göndəriş əsasında xüsusi tibbi müayinədən keçən və "Fiziki hazırlıq" üzrə normativləri yerinə yetirən abituriyentlər seçə bilər.

**3.8. Azərbaycan Dillər Universitetinin** ixtisaslarının müsabiqəsində iştirak etmək üçün abituriyentlərin imtahan verdiyi xarici dilə uyğun olaraq onların ixtisas seçiminə müəyyən məhdudiyyətlər qoyulur. Aşağıdakı cədvəldə abituriyentlərin imtahan verdiyi xarici dilə uyğun olaraq hansı ixtisasları seçmək hüququ olduğu göstərilir:

| İxtisasların adları | Xarici dillər |
|---|---|
| Filologiya *(Azərbaycan dili və ədəbiyyatı)*<br>Azərbaycan dili və ədəbiyyatı müəllimliyi<br>Beynəlxalq münasibətlər | xarici dil seçiminə heç bir məhdudiyyət qoyulmur |
| Xarici dil müəllimliyi *(alman dili)*<br>Dil və ədəbiyyat müəllimliyi *(alman dili və ədəbiyyatı müəllimliyi)*<br>Regionşünaslıq *(Almaniya üzrə)*<br>Filologiya *(alman dili və ədəbiyyatı)*<br>Tərcümə *(alman dili)* | alman və ya ingilis dili |
| Xarici dil müəllimliyi *(fransız dili)*<br>Dil və ədəbiyyat müəllimliyi *(fransız dili və ədəbiyyatı müəllimliyi)*<br>Regionşünaslıq *(Fransa üzrə)*<br>Filologiya *(fransız dili və ədəbiyyatı)*<br>Tərcümə *(fransız dili)* | fransız və ya ingilis dili |
| Regionşünaslıq *(ərəb ölkələri üzrə)*<br>Tərcümə *(ərəb dili)* | ərəb və ya ingilis dili |
| Regionşünaslıq *(Rusiya üzrə)* | rus və ya ingilis dili |
| digər ixtisaslar | ingilis dili |

**3.9. Lənkəran Dövlət Universitetinin "Xarici dil müəllimliyi *(ingilis dili üzrə)*"** ixtisasını qəbul imtahanının birinci mərhələsində (buraxılış imtahanında) xarici dil kimi ingilis dilindən imtahan vermiş abituriyentlər seçə bilərlər.

**3.10. ADA Universiteti bakalavriat səviyyəsinə qəbul üç yolla aparılır:**

1) DİM-in keçirdiyi qəbul imtahanlarının nəticələrinə əsasən.

– **I qrupa daxil olan "Kənd təsərrüfatı texnologiyaları" və "Heyvandarlıq"** ixtisasları üzrə müsabiqəyə ümumi balı 300-dən və ikinci mərhələdə topladığı balı 100-dən az olmayan abituriyentlər buraxılır.
– **I qrupa daxil olan digər** ixtisaslar üzrə isə müsabiqəyə ümumi balı 400-dən və ikinci mərhələdə topladığı balı 100-dən az olmayan abituriyentlər buraxılır.
– **II və III qruplara daxil olan** ixtisasları üzrə müsabiqəyə ümumi balı 400-dən, ikinci mərhələdə topladığı balı 100-dən az olmayan abituriyentlər buraxılır.
– "Dizayn (sahələr üzrə)" ixtisasını yalnız I-IV ixtisas qruplarının hər hansı biri üzrə imtahanda iştirak edən və ümumi balı 400-dən az olmayan abituriyentlər seçə bilər.

**Subbakalavrların** qəbul imtahanlarında iştirak etmədən ADA Universitetinin ixtisaslarına müsabiqə yolu ilə qəbulu aparılmır.

2) Beynəlxalq SAT imtahanının nəticəsinə əsasən.

ADA Universitetinin ixtisaslarının müsabiqəsinə beynəlxalq **SAT imtahanı üzrə ən azı 1200 bal** toplayan, həmçinin ya **IELTS Academic üzrə minimum 6.0**, ya **TOEFL iBT üzrə minimum 75** və ya **Duolingo English Test üzrə minimum 105 balı** olan və iyunun **30**-dək tələb olunan sənədləri müvafiq qaydada təqdim edən abituriyentlər də buraxılır. İngilis dili ilə bağlı tələb Azərbaycandan kənarda yerləşən ingilis dilli məktəblərin məzunlarına və ya ADA Universitetinin ingilis dili kurslarının müvafiq səviyyəsini müvəffəqiyyətlə bitirmiş abituriyentlərə şamil olunmur.

**ADA Universitetinin "Kompüter elmləri", "Kompüter mühəndisliyi", "İnformasiya texnologiyaları", Elektrik və elektronika mühəndisliyi", "Riyaziyyat", "Biznesin idarə edilməsi", "İqtisadiyyat"** və **"Maliyyə"** ixtisaslarına qəbul olmaq istəyən abituriyentlərin qeyd olunan şərtlərlə yanaşı, **SAT imtahanından "Riyaziyyat" bölməsi üzrə ən azı 600 bal** toplamaları tələb olunur.

ADA Universitetinə SAT imtahanlarının nəticələrinə əsasən qəbul olmaq istəyən abituriyentlərin **Azərbaycan dili (dövlət dili)** fənni üzrə "məqbul" almaları, tam orta təhsil müəssisələrinin Azərbaycan bölməsini bitirən abituriyentlərin buraxılış imtahanında (qəbul imtahanının I mərhələsində) tədris dili (Azərbaycan dili) fənnindən 50 bal və yuxarı nəticə göstərmələri tələb olunur.

ADA Universitetinin "Hüquqşünaslıq" ixtisasına SAT imtahanının nəticələrinə əsasən qəbul aparılmır.

3) **ADA Universitetinin** Nizamnaməsinə uyğun olaraq ADA Məktəbinin məzunlarının Məktəbin daxili imtahanlarının nəticələrinə əsasən ADA Universitetinə qəbulu həyata keçirilir.

**3.11. Azərbaycan Dövlət Aqrar Universitetinin "Meliorasiya mühəndisliyi" ixtisası üzrə** həm dövlət sifarişi əsasında, həm də ödənişli əsaslarla qəbul aparılan yerlərin müsabiqəsinə I ixtisas qrupunun RK altqrupu üzrə qəbul imtahanında topladıqları ümumi balları 150-dən və imtahanın ikinci mərhələsində topladıqları balları 50-dən az olmayan abituriyentlər buraxılırlar.

**3.12. Bakı Ali Neft Məktəbinin** ixtisaslarını ümumi balı 400-dən az olmayan abituriyentlər seçə bilərlər.

**3.13. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "Aktyor sənəti"** ixtisasının qiyabi təhsilalma formasını yalnız bölgə teatrlarında (Bakı şəhəri istisna olmaqla) hal-hazırda fəaliyyət göstərən, iş stajı əmək kitabçasına əsasən 5 ildən az olmayan, lakin peşə üzrə bakalavr təhsili olmayan aktyorlar seçə bilər.

**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "Operator sənəti"** ixtisasının qiyabi təhsilalma formasını yalnız hal-hazırda televiziya kanallarında fəaliyyət göstərən, iş stajı əmək kitabçasına əsasən 3 ildən az olmayan, lakin peşə üzrə bakalavr təhsili olmayan operatorlar seçə bilər.

**3.14. Bakı Xoreoqrafiya Akademiyasının "Xoreoqrafiya sənəti"** ixtisasının qiyabi təhsilalma formasını yalnız dövlət müəssisələrində rəqs sənəti üzrə ən azı 5 il peşəkar əmək fəaliyyəti ilə məşğul olan şəxslər seçə bilər.

**3.15. Türkiyə-Azərbaycan Universitetinin "Kompüter mühəndisliyi"** ixtisasını ümumi balı **550-dən, "Sənaye mühəndisliyi"** ixtisasını ümumi balı **500-dən, "Qida mühəndisliyi"** ixtisasını isə ümumi balı **450-dən az olmayan** abituriyentlər seçə bilər.

**3.16. Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi Azərbaycan İdman Akademiyasının tədrisi ingilis dilində olan "Məşqçilik" və "İdman menecmenti və kommunikasiya"** ixtisaslarının müsabiqəsinə qəbul imtahanının birinci mərhələsində (buraxılış imtahanında) ingilis dili fənni üzrə nisbi balı 40-dan az olmayan abituriyentlər buraxılırlar.

## 4. Subbakalavrların müsabiqədə iştirakı

**4.1.** Orta ixtisas təhsili pilləsi və ya yüksək texniki peşə təhsili səviyyəsi üzrə "subbakalavr" peşə-ixtisas dərəcəsi almış şəxslər (bundan sonra - subbakalavrlar) qəbul imtahanlarında iştirak etmədən ali təhsil müəssisələrinə müsabiqə yolu ilə qəbul olmaq hüququna malikdirlər.

**4.2.** Subbakalavrlar ixtisas seçimində iştirak etmək üçün **2025-ci il avqustun 11-dən 19-dək** qəbul olmaq istədikləri ixtisasların kodlarını "Abituriyentin elektron ixtisas seçimi ərizəsi"nə daxil edib təsdiq etməlidirlər (bax: səh. 10, "Abituriyentin elektron ixtisas seçimi ərizəsi"nin doldurulma qaydası).

Subbakalavrlar yalnız orta ixtisas təhsili pilləsində və ya yüksək texniki peşə təhsili səviyyəsində təhsil aldıqları tədris dilinə və bitirdikləri ixtisasa uyğun olan ixtisasları seçə bilərlər (bax: "Abituriyent" jurnalının "2025/2026-cı tədris ili üçün Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə qəbul üzrə subbakalavrların ixtisas seçimi elanı" adlı xüsusi buraxılışında təqdim olunan "Müvafiq ixtisaslar üzrə subbakalavr dərəcəsini almış şəxslərin ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə (əsas (baza ali) tibb təhsilinə) qəbulu ilə bağlı ixtisas uyğunluğu cədvəli"nə). Qəbul aparılan ixtisasların uyğunluğu Dövlət İmtahan Mərkəzi ilə razılaşdırılmaqla, Elm və Təhsil Nazirliyi tərəfindən müəyyən olunmuşdur.

Subbakalavr ixtisas seçərkən bu ixtisas üzrə dövlət sifarişi əsasında və ya ödənişli əsaslarla təhsil almaq istədiyini qeyd etməlidir. Hər hansı bir ixtisas üzrə həm dövlət sifarişi, həm də ödənişli əsaslarla olan yerlərin müsabiqəsində iştirak etmək istəyən subbakalavr həmin ixtisasın kodunu ərizəyə iki dəfə daxil etməli və ayrılıqda bu ixtisas üzrə təhsilini dövlət sifarişi əsasında və ya ödənişli əsaslarla almaq istədiyini qeyd etməlidir. İxtisas kodlarını, onların sayını və ardıcıllığını subbakalavr özü müəyyənləşdirir.

Dövlət hesabına ali təhsil almış şəxslər dövlət sifarişi üzrə ayrılmış yerləri seçə bilməzlər.

**4.3. Subbakalavrların qəbul imtahanlarında iştirak etmədən aşağıda göstərilən ixtisaslara müsabiqə yolu ilə qəbulu aparılmır**:

- Xarici dil fənni üzrə əlavə tələb qoyulan ixtisaslar;
- ADA Universitetinin ixtisasları;
- Bakı Ali Neft Məktəbinin ixtisasları;
- Qarabağ Universitetinin ixtisasları;
- Türkiyə-Azərbaycan Universitetinin ixtisasları.

**4.4.** Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin ixtisaslarını yalnız bu universitetin nəzdində olan Sənaye və Texnologiya Kolleci və Bakı Neft-Energetika Kollecindən məzun olan subbakalavrlar seçə bilərlər.

**4.5.** Azərbaycan Texniki Universitetin ixtisaslarını yalnız bu universitetin nəzdində olan Bakı Dövlət Rabitə və Nəqliyyat Kolleci və Bakı Texniki Kollecindən məzun olan subbakalavrlar seçə bilərlər.

**4.6.** Xüsusi qabiliyyət tələb edən ixtisasları yalnız bu ixtisaslar üzrə qabiliyyət imtahanlarında iştirak edən və müvafiq müsabiqə şərtlərini ödəyən (bax: səh. 8 *"Xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə müsabiqə şərtləri" adlı cədvəl*) subbakalavrlar seçə bilərlər.

**4.7.** İxtisas seçimi başa çatdıqdan sonra ali təhsil müəssisələrinin ixtisaslarının qəbul planı və dövlət sifarişi ilə tələbə qəbulunun proqnozu çərçivəsində (V ixtisas qrupunda qabiliyyət imtahanlarının nəticələri balla qiymətləndirilən ixtisaslar istisna olmaqla) əvvəlcə abituriyentlərin, bundan sonra isə subbakalavrların müsabiqə əsasında yerləşdirilməsi aparılır. **V ixtisas qrupunda qabiliyyət imtahanlarının nəticələri balla qiymətləndirilən ixtisaslar üzrə müsabiqə isə abituriyentlər və subbakalavrlar arasında eyni vaxtda aparılır. Eyni yerə iddia edən abituriyent və subbakalavrın qabiliyyət imtahanı üzrə yekun balı bərabər olarsa, bu zaman üstünlük abituriyentə verilir.**

Yerləşdirilmə elektron ixtisas seçimi ərizəsində qeyd olunan ixtisasların ardıcıllığı nəzərə alınmaqla həyata keçirilir.

Eyni bir yerə iddia edən iki və daha artıq subbakalavrı fərqləndirmək məqsədilə aşağıda qeyd edilən ardıcıllıqla əlavə göstəricilərdən istifadə edilir:

1. *Orta ixtisas təhsili pilləsi və ya yüksək texniki peşə təhsili səviyyəsi üzrə ümumi orta müvəffəqiyyət göstəricisi (ÜOMG),*
2. *Tam orta təhsil haqqında sənədə (attestata) "Tədris dili", "Ədəbiyyat", "Xarici dil", "Riyaziyyat", "Azərbaycan tarixi", "Ümumi tarix", "Fizika", "Kimya", "Biologiya", "Coğrafiya" fənləri üzrə yazılmış yekun qiymətlərin ədədi ortası (AYQƏO).*

**4.8.** Qəbul imtahanında iştirak edən subbakalavr öz istəyindən asılı olaraq, həm imtahanda topladığı bal ilə **abituriyent** kimi ümumi qaydada, həm də **subbakalavr** kimi qəbul imtahanında iştirak etmədən orta ixtisas təhsili pilləsi və ya yüksək texniki peşə təhsili səviyyəsində bitirdiyi ixtisasa uyğun ali təhsil pilləsinin ixtisasları üzrə keçirilən müsabiqədə iştirak edə bilər. Bunun üçün həmin şəxs qəbul olmaq istədiyi ixtisasların kodlarını "Abituriyentin elektron ixtisas seçimi ərizəsi"nə daxil edib təsdiq etməlidir.

**Qeyd:** Tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu müsabiqəsində iştirak etmək üçün ixtisas seçimi ali təhsil müəssisələrinə yerləşdirmə başa çatdıqdan sonra aparılacaqdır.

## İmtahan fənlərinin ixtisas qrupları (altqrupları) üzrə çəki əmsalları və üstünlük dərəcələri

| I qrup RK altqrupu | I qrup Rİ altqrupu | II qrup | III qrup DT altqrupu | III qrup TC altqrupu | IV qrup |
|---|---|---|---|---|---|
| Riyaziyyat – 1,5 (1) | Riyaziyyat – 1,5 (1) | Riyaziyyat – 1,5 (1) | Azərbaycan (rus) dili – 1,5 (1) | Azərbaycan (rus) dili – 1,5 (1) | Biologiya – 1,5 (1) |
| Fizika – 1,5 (2) | Fizika – 1,5 (2) | Coğrafiya – 1,5 (2) | Tarix – 1,5 (2) | Tarix – 1,5 (2) | Kimya – 1,5 (2) |
| Kimya – 1 (3) | İnformatika – 1 (3) | Tarix – 1 (3) | Ədəbiyyat – 1 (3) | Coğrafiya – 1 (3) | Fizika – 1 (3) |

**Qeyd:** Cədvəldə mötərizədə göstərilmiş rəqəm fənnin üstünlük dərəcəsini göstərir.

## Xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə müsabiqə şərtləri

| İxtisasın adı | Minimal bal | II mərhələ üzrə minimal bal | Qabiliyyət imtahanının yekun nəticəsi |
|---|---|---|---|
| **I ixtisas qrupu** (RK altqrupu) | | | |
| Memarlıq | 200 | - | məqbul (6 bal) |
| **III ixtisas qrupu** (DT altqrupu) | | | |
| İslamşünaslıq | 150 | 50 | məqbul |
| Jurnalistika | 200 | 100 | məqbul (5 bal) |
| **V ixtisas qrupu** | | | |
| Musiqi müəllimliyi<br>Təsviri incəsənət müəllimliyi | 60 | - | məqbul (6 bal) |
| Fiziki tərbiyə və çağırışaqədərki hazırlıq müəllimliyi<br>Adaptiv bədən tərbiyəsi<br>Kütləvi sağlamlaşdırıcı idman<br>Ümumi fiziki hazırlıq | 80 | - | məqbul (6 bal) |
| Rejissorluq | 120 | - | 6 (bal) |
| Dizayn (sahələr üzrə)<br>Dekorativ-tətbiqi sənət (sahələr üzrə)<br>İnstrumental ifaçılıq (sahələr üzrə)<br>Vokal sənəti (sahələr üzrə)<br>Dirijorluq (sahələr üzrə)<br>Bəstəkarlıq<br>Musiqişünaslıq<br>Populyar musiqi və caz ifaçılığı (sahələr üzrə)<br>Aktyor sənəti<br>Operator sənəti<br>Rəngkarlıq<br>Qrafika<br>Heykəltəraşlıq | 60 | - | 6 (bal) |
| Məşqçilik (sahələr üzrə) | 70 | - | 6 (bal) |
| Xoreoqrafiya sənəti (sahələr üzrə) | 30 | - | 6 (bal) |

## Beynəlxalq səviyyədə akkreditasiya olunan təhsil proqramları üzrə təhsil almış abituriyentlərin ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbulu şərtləri

**1.** Beynəlxalq səviyyədə akkreditasiya olunan aşağıdakı təhsil proqramları üzrə təhsil almış abituriyentlər ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbul oluna bilərlər:

- Beynəlxalq Bakalavriat Diplom Proqramı (IB Diploma Programme);
- Təhsil haqqında ümumi sertifikatın yüksək səviyyəsi (Advanced Level of General Certificate of Education);
- Yüksək yerləşdirmə (Advanced Placement).

**2.** Ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbul olmaq imkanına yalnız “Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə tələbə qəbulu Qaydaları”na əsasən Azərbaycan dili (dövlət dili) fənnindən imtahan verərək “məqbul” qiymət alan abituriyentlər malikdirlər.

**3.** Müsabiqədənkənar qəbul üçün (elan edilmiş müddətdə və qaydada) sənədlərini təqdim etmiş abituriyentlərin ixtisas seçimi barədə məlumat DİM-in rəsmi internet saytında təqdim olunur. Abituriyentlər yalnız 1-ci bənddə qeyd olunan təhsil proqramları üzrə təhsil aldıqları dildə tədris olunan ixtisasları seçə bilərlər.

**4.** Ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbul üçün minimal bal tələbləri təhsil proqramları üzrə **aşağıdakı cədvəldə** təqdim olunmuşdur.

**Beynəlxalq səviyyədə akkreditasiya olunan təhsil proqramları üzrə təhsil almış abituriyentlərin ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbulu üçün minimal tələblər**

| | Proqramlar | Müsabiqədənkənar qəbul üçün minimal tələblər | |
|---|---|---|---|
| | | Ödənişli əsaslarla qəbul üçün | Dövlət sifarişi əsasında qəbul üçün |
| 1. | Beynəlxalq Bakalavriat Diplom Proqramı | **25** (“Hüquqşünaslıq” və “Tibb” ixtisasları üzrə - **30**) | **35** |
| 2. | Təhsil haqqında ümumi sertifikatın yüksək səviyyəsi (müvafiq üç imtahan fənni üzrə) | **C** | **B** |
| 3. | Yüksək yerləşdirmə (müvafiq üç imtahan fənni üzrə) | **3** | **4** |

**Qeyd:** “Müvafiq üç imtahan fənni” dedikdə **I ixtisas qrupu (RK altqrupu)** üzrə riyaziyyat, fizika və kimya fənləri, **I ixtisas qrupu (Rİ altqrupu)** üzrə riyaziyyat, fizika və informatika fənləri, **II ixtisas qrupu** üzrə riyaziyyat, coğrafiya və tarix fənləri, **III ixtisas qrupu (DT altqrupu)** üzrə Azərbaycan dili və ya rus dili, tarix və ədəbiyyat fənləri, **III ixtisas qrupu (TC altqrupu)** üzrə Azərbaycan dili və ya rus dili, tarix və coğrafiya fənləri, **IV ixtisas qrupu** üzrə isə biologiya, kimya və fizika fənləri nəzərdə tutulur.

## Beynəlxalq və respublika fənn olimpiadalarının, beynəlxalq müsabiqələrin və yarışların qaliblərinin ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbulu şərtləri

**1.** Beynəlxalq və respublika fənn olimpiadalarının, beynəlxalq müsabiqələrin və yarışların qalibləri ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbul olunmaq hüququna malikdirlər.

**2.** Beynəlxalq və respublika fənn olimpiadalarının, beynəlxalq müsabiqələrin və yarışların qalibləri dedikdə, aşağıdakı şəxslər nəzərdə tutulur:

- Beynəlxalq fənn olimpiadasının qızıl, gümüş və ya bürünc medalı ilə təltif olunmuş şəxslər;
- IX-XI sinif şagirdləri arasında keçirilən respublika fənn olimpiadasında birinci, ikinci və üçüncü yer tutmuş şəxslər;
- Beynəlxalq müsabiqənin və ya yarışın (15 yaşdan yuxarı yaş qrupunda) laureatı olmuş (ali mükafat, birinci, ikinci və üçüncü yerlər) şəxslər.

**3.** Beynəlxalq və respublika fənn olimpiadasının qalibinin tam orta təhsil səviyyəsini bitirdikdən sonrakı növbəti 2 tədris ili üçün, beynəlxalq müsabiqənin və ya yarışın qalibinin isə tam orta təhsil səviyyəsini bitirməklə qalibiyyət əldə etdikdən sonrakı növbəti 5 tədris ili üçün ali təhsil müəssisəsinə tələbə qəbulunda yalnız bir dəfə müsabiqədənkənar qəbul olunmaq hüququ vardır. “Müsabiqədənkənar qəbulun aparıldığı ixtisaslar”, “Beynəlxalq fənn olimpiadalarının siyahısı”, “Respublika fənn olimpiadalarının siyahısı” və “Beynəlxalq müsabiqələrin və yarışların siyahısı” Nazirlər Kabinetinin 2019-cu il 20 may tarixli 229 nömrəli Qərarında əks olunmuşdur (http://www.e-qanun.az/framework/42536).

**4.** Müsabiqədənkənar qəbul üçün (elan edilmiş müddətdə və qaydada) sənədlərini təqdim etmiş abituriyentlərin ixtisas seçimi barədə məlumat DİM-in rəsmi internet saytında təqdim olunur.

# "Abituriyentin elektron ixtisas seçimi ərizəsi"nin doldurulma qaydası

Abituriyentlər ixtisas seçimi mərhələsində qəbul olmaq istədikləri ixtisasların kodlarını "Abituriyentin elektron ixtisas seçimi ərizəsi"nə daxil edib təsdiqləməlidirlər.

İxtisas seçmək hüququna yalnız test imtahanında iştirak etmiş və imtahan nəticələri müsabiqə şərtlərini tam ödəyən abituriyentlər və elektron ərizəsi təsdiq olunmuş subbakalavrlar (bundan sonra subbakalavrlar) malikdirlər.

"Abituriyentin elektron ixtisas seçimi ərizəsi" ilə işləmək üçün abituriyent (subbakalavr):

1. Məlumatların təhlükəsizliyini təmin etmək məqsədilə 1000-9999 intervalında olan ixtiyari 4 rəqəmli təhlükəsizlik şifrəsi müəyyənləşdirir. Bu şifrə abituriyentin (subbakalavrın) öz elektron ixtisas seçimi ərizəsinə hər dəfə daxil olub işləmək istədiyi halda proqram tərəfindən soruşulacaq. **Abituriyent (subbakalavr) şifrəni unutmamalı və məxfi saxlamalıdır.**
2. **dim.gov.az** internet saytında yerləşdirilmiş ixtisas seçiminə aid linkə (və ya **eservices.dim.gov.az/erizebak/ixtisas1** internet ünvanına) daxil olur.
3. Şəxsi kabinetinin istifadəçi adı və parolunu açılmış səhifədə müvafiq sahələrə daxil edib **"Daxil ol"** düyməsini basır.
4. Şəxsi kabinetinin istifadəçi adı və parolu düzgün daxil edildiyi halda ekranda **"Şifrəni daxil edin" və "Şifrəni təkrar daxil edin"** sahələri açılır. Abituriyent (subbakalavr) bu sahələrə 4 rəqəmli təhlükəsizlik şifrəsini daxil edir və **"Növbəti"** düyməsini basır.
5. Növbəti addımda abituriyentin (subbakalavrın) iş nömrəsi, soyadı, adı, atasının adı, bölməsi, test imtahanlarında əldə etdiyi nəticələr (subbakalavrın bitirdiyi ixtisasın şifrəsi) və digər məlumatlar əks olunan yeni səhifə açılır. Bu səhifəyə ixtisas kodlarını daxil etmək üçün nəzərdə tutulmuş 15 boş sahə və hər sahənin qarşısında müvafiq ixtisasın dövlət sifarışı və ya ödənişli əsaslarla olmasını qeyd etmək üçün qeyd sahəsi yerləşdirilmişdir.
6. Qəbul olmaq istədiyi 15-dək ixtisasın kodunu istəyinə uyğun ardıcıllıqla müvafiq sahələrə daxil edir. Abituriyent (subbakalavr) ixtisas kodunu daxil etdikdən sonra onun dövlət sifarışı və ya ödənişli əsaslarla olmasını mütləq qeyd etməlidir. Əgər daxil edilmiş ixtisas kodunun qarşısında dövlət sifarışı və ya ödənişli əsaslarla olması barədə qeyd olmazsa, məlumatlar yadda saxlanılmır. İxtisas kodu iki dəfə daxil edilə bilər, lakin kodların qarşısındakı qeydlər (dövlət sifarışı və ya ödənişli əsaslarla) mütləq fərqli olmalıdır. Əks halda bu kodların ikincisi səhv kod kimi qəbul olunacaq və ərizəni təsdiqləmək mümkün olmayacaq.

   Qəbul imtahanının birinci mərhələsində həm 2024-cü ildə, həm də cari ildə iştirak edən abituriyentlər müsabiqədə hansı imtahanın nəticəsi ilə iştirak edəcəklərini özləri müəyyən edirlər.
7. İxtisas kodlarını daxil etdikdən sonra **"Yadda saxla"** düyməsini basır. İxtisas kodu düzgün daxil edilibsə, kodun qarşısında ona uyğun olan təhsil müəssisəsinin və ixtisasın adı, təhsil forması və ixtisasın dövlət hesablı və ya ödənişli olması barədə məlumat proqram tərəfindən göstərilir. Səhv olan ixtisas kodunun qarşısına proqram səhvin mahiyyəti barədə məlumat çıxarır.
8. "Abituriyentin elektron ixtisas seçimi ərizəsi"ni təsdiqləyənədək öz ərizəsinə təkrar müraciət etməklə seçdiyi ixtisasların siyahısında dəyişikliklər apara bilər.
9. Seçimini dəqiqləşdirdikdən sonra **"Təsdiq et"** düyməsini basmaqla elektron ərizəni təsdiqləyir. **"Təsdiq et"** düyməsi basıldıqda proqram abituriyentə (subbakalavra) bundan sonra düzəliş aparmağa imkan verilməyəcəyi barədə xəbərdarlıq edir və seçim üçün **"Təsdiq"** və **"İmtina"** düymələrindən birini basmağı təklif edir. Abituriyent (subbakalavr) **"İmtina"** düyməsini basmaqla təsdiqdən imtina edib elektron ərizədə yenidən düzəliş apara bilər. Əgər abituriyent (subbakalavr) **"Təsdiq"** düyməsini basarsa, elektron ərizə təsdiqlənir və bundan sonra elektron ərizədə düzəliş etməyə imkan verilmir.
10. Abituriyent (subbakalavr) **"Çap variantı"** düyməsindən istifadə etməklə "Abituriyentin elektron ixtisas seçimi ərizəsi"nin surətini çap edir.

---

**DİQQƏT!**

**Müsabiqəyə yalnız 2025-ci il avqustun 11-dən 19-dək elektron ixtisas seçimi ərizələrini təsdiq etmiş abituriyentlər (subbakalavrlar) buraxılacaqlar.**

---

# Abituriyent Məsləhət Mərkəzləri

Ali və orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq istəyən abituriyentlərə kömək məqsədi ilə Dövlət İmtahan Mərkəzinin regional bölmələrində, Qərbi Kaspi, Azərbaycan, Bakı Biznes, Odlar Yurdu, Azərbaycan Memarlıq və İnşaat, Azərbaycan Texniki, Azərbaycan Dövlət Aqrar və Sumqayıt Dövlət Universitetlərində ödənişsiz əsaslarla "Abituriyent Məsləhət Mərkəzləri" fəaliyyət göstərir.

"Abituriyent Məsləhət Mərkəzləri"ndə xüsusi treninq keçmiş əməkdaşlar abituriyentlərə tələbə qəbulu qaydaları, müsabiqə şərtləri, "Abituriyentin elektron ixtisas seçimi ərizəsi"nin doldurulma və təsdiq edilmə qaydası və bu zaman qarşıya çıxa biləcək texniki problemlərin həlli, ixtisas seçimi zamanı diqqət yetirilməli olan məsələlər və s. haqqında kömək göstərirlər.

"Abituriyent Məsləhət Mərkəzləri" aşağıda qeyd olunan ünvanlarda həftənin 5 günü (şənbə, bazar və bayram günləri istisna olmaqla) saat 10.00-dan 17.00-dək fəaliyyət göstərirlər:

### Bakı şəhəri

**Azərbaycan Memarlıq və İnşaat Universiteti**
*Ünvan: Yasamal rayonu, A.Sultanova küç., 11.*
*Telefon: +994 12 538 94 63;*

**Azərbaycan Texniki Universiteti**
*Ünvan: Yasamal rayonu, H.Cavid prospekti, 25.*
*Telefon: +994 12 538 15 96;*

**Azərbaycan Universiteti**
*Ünvan: Nəsimi rayonu, Ceyhun Hacıbəyli küç., 71.*
*Telefon: +994 12 431 41 17;*

**Bakı Biznes Universiteti**
*Ünvan: Yasamal rayonu, H. Zərdabi küç., 88a.*
*Telefon: +994 12 431 79 51 (daxili nömrə: 226);*

**Qərbi Kaspi Universiteti**
*Ünvan: Səbail rayonu, İstiqlaliyyət küç., 27.*
*Telefon:+994 12 492 61 63;*
Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Əhməd Rəcəbli küç, 17. ("Prime" hospitalın yanı)
Telefon: +994 12 565 39 76

**Odlar Yurdu Universiteti**
*Ünvan: Nərimanov rayonu,*
*Koroğlu Rəhimov küç., 13.*
*Telefon: +994 12 465 85 27;*

### Sumqayıt şəhəri

**Sumqayıt Dövlət Universiteti**
*Ünvan: 43-cü məhəllə, Bakı küç., 1.*
*Telefon: +994 18 642 20 33;*

### Gəncə şəhəri

**Azərbaycan Dövlət Aqrar Universiteti**
*Aqronomluq və zoomühəndislik tədris binası,*
*Ünvan: Ozan küç., 102.*
*Telefon: +994 22 266 00 47;*

### Dövlət İmtahan Mərkəzinin regional bölmələri

**Naxçıvan MR Regional Bölməsi**
*Naxçıvan şəhəri, Atatürk küçəsi, 10.*
*Telefon:+994 36 544 04 02;*

**Göyçay Regional Bölməsi**
*Göyçay şəhəri, Rauf İsayev küçəsi, 43.*
*Telefon:+994 20 274 66 74;*

**Şəki Regional Bölməsi**
*Şəki şəhəri, S.Mümtaz küçəsi, 8*
*Telefon:+994 24 244 66 14;*

**Xaçmaz Regional Bölməsi**
*Xaçmaz şəhəri, M.Rəsulzadə küçəsi, 7b.*
*Telefon:+994 23 325 01 21;*

**Lənkəran Regional Bölməsi**
*Lənkəran şəhəri, H.Aslanov xiyabanı, 52.*
*Telefon:+994 25 255 24 82;*

**Gəncə Regional Bölməsi**
*Gəncə şəhəri, H.Əliyev meydanı, İnzibati bina.*
*Telefon:+994 22 266 50 67;*

**Şirvan Regional Bölməsi**
*Şirvan şəhəri, M.Rəsulzadə küçəsi, 19.*
*Telefon:+994 21 215 15 23;*

**Bərdə Regional Bölməsi**
*Bərdə ş., H.Əliyev prospekti, 100.*
*Telefon:+994 20 205-01-86;*

**Şəmkir Regional Bölməsi**
*Şəmkir ş., Bakı-Qazax şosesi,*
*İnzibati bina "West gate".*
*Telefon:+994 55 214 97 00.*